**Respublika. -** 2024.- 15 noyabr. - № 251. - S. 13.

# İqlim müzakirəsində mühüm platforma

**Bayram Salmanov**

**İqlim Dəyişikliyi haqqında Çərçivə Konvensiyası müstəvisində hər il keçirilən Birləşmiş Millətlər Təşkilatının (BMT-nin) konfransları ekoloji problemlərin həllində mühüm əhəmiyyət kəsb edir. 1990-cı illərin ortalarından etibarən inkişaf etmiş ölkələrə istixana qazı emissiyalarını azaltmaq üçün hüquqi cəhətdən məcburi öhdəliklər qoyan Kioto Protokolunu müzakirə etmək üçün təşkil edilən Tərəflər Konfransı (COP) həmçinin önəmli əməkdaşlıq platformasıdır.**

Hazırda paytaxt Bakının ev sahibliyi etdiyi COP29 sammiti iqlim dəyişmələrindən ən çox əziyyət çəkən kiçik dövlətlərin problemlərinin həllində mühüm bir mərhələ kimi qiymətləndirilir. Tədbirdə ən vacib istiqamətlərdən biri də məhz kiçik dövlətlərin səsinin qlobal səviyyədə eşidilməsi, onların iqlim problemlərinin həlli üçün xüsusi platformaların, maliyyə və texniki dəstək mexanizmlərinin gücləndirilməsidir.

## Müasir çağırışlar

Qeyd edək ki, Azərbaycan hər zaman iştirakçısı olduğu bütün platformalarda kiçik dövlətlərin mənafeyinin müdafiəçisi kimi çıxış edib. Qoşulmama Hərəkatı çərçivəsində, COVID19-da, həmçinin neokolonializmə qarşı mübarizədə kiçik dövlətlərə verilən dəstək bunun əyani göstəricisidir. Məhz bu baxımdan dövlətimizin ev sahibliyi etdiyi COP29 həm də kiçik ölkələrin üzləşdikləri yüksələn dəniz səviyyəsi, intensiv daşqın və quraqlıq kimi fəsadlara, eyni zamanda iqlim dəyişmələrindən qaynaqlanan fərqli problemlərə qarşı mübarizə effekti yaradır. Bununla bağlı bir sıra təşkilat və dövlətlərin təmsilçiləri öz dəyərli fikirlərini bölüşürlər. Məsələn, Antiqua və Barbudanın iqlim məsələləri üzrə səfiri Ruleta Kamaço Tomas inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün iddialı qlobal liderliyin və əhəmiyyətli maliyyə dəstəyinin vacib əhəmiyyətini vurğulayıb. O, Antiqua və Barbuda kimi kiçik ada dövlətləri üçün iqlim dəyişmələrinin ağır nəticələrinə diqqət çəkərək, beynəlxalq ictimaiyyəti həssas ölkələrə yardım öhdəliyini təsdiqləməyə çağırıb: "Biz gözləyirik ki, iqlim dəyişmələri ilə bağlı qlobal liderlik əvvəlki kimi iddialı və təsirli qalacaq. Xüsusilə, inkişaf etməkdə olan kiçik ada dövlətlərinə təsirinə gəldikdə, dünya liderlərinin qarşılaşdığımız risk səviyyəsini azaltmağa kömək etmək əzmini təsdiqləməyə ümid edirik". Səfir, həmçinin iqlim dəyişmələrinin yaratdığı maliyyə problemlərinin həlli üçün kreditlərdən deyil, qrantlardan istifadə etməyə, böyük ölkələri və emissiya mənbələrini real addımlar atmağa və hesabatlı olmağa çağırıb. O, COP29-un təşkilində Azərbaycanın rolunu dəstəkləyərək ölkənin iqlim dəyişmələri ilə mübarizəyə sadiqliyini yüksək qiymətləndirib.

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) İqlim strategiyası və inkişafı üzrə idarəedici direktoru Harri Boyd-Karpenter Kütləvi İnformasiya Vasitələrinə (KİV) müsahibəsində iqlim böhranının təsirləri ilə mübarizədə zəif inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin ehtiyaclarını ödəmək üçün 2030-cu ilə qədər 2,4 trilyon ABŞ dolları lazım olduğunu bildirib. Onun sözlərinə görə, COP29 üçün prioritet Yeni Kollektiv Kəmiyyət Məqsədi (NCQG) kontekstində iqlim maliyyələşməsi çərçivələrinin razılaşdırılmasıdır. Direktor onu da qeyd edib ki, zəif inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin iqlim maliyyələşdirilməsində gecikmə bəşəriyyəti daha mürəkkəb vəziyyətə gətirib çıxaracaq.

## Kiçik dövlətlərin ekoloji problemlərinin həllinə diqqət

Azərbaycanın bu qlobal problemdə rolu böyük dövlətləri iqlim dəyişmələri ilə mübarizədə daha məsuliyyətli olmağa təşviq edəcək bir nümunə kimi dəyərləndirilir. COP29-un Bakıda keçirilməsi ölkəmizi həm regional, həm də qlobal səviyyədə iqlim dəyişmələri məsələlərinə ciddi və məsuliyyətli yanaşdığının göstəricisdir. Bu addım kiçik dövlətlərin iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə daha güclü dəstəklənməsinə və onların maraqlarının COP çərçivəsində daha əhatəli şəkildə nəzərə alınmasına xidmət edir. Ümumiyyətlə, kiçik ada dövlətləri iqlim dəyişmələrinin fəsadlarına ən çox məruz qalan ölkələrdir. Bu ölkələr həm coğrafi, həm də iqtisadi cəhətdən iqlim dəyişmələrinə qarşı ən zəif müdafiəyə malikdir. BMT-nin müvafiq hesablamalarına görə, iqlim dəyişmələri səbəbilə əhali köçlərinin, su resurslarının tükənməsinin, kənd təsərrüfatında məhsuldarlığın azalmasının və dəniz səviyyəsinin qalxmasının əsas təsirlərini bu ölkələr görür. Məsələn, Maldiv adaları, 2100-cü ilə qədər tamamilə su altında qalmaq

təhlükəsi ilə üzləşir. Dəniz səviyyəsinin ildə 1 sm qalxması nəticəsində Maldiv adaları kimi kiçik ada dövlətləri ciddi ekoloji təhlükə altındadır. Banqladeş kimi ölkələr isə daha böyük miqyasda daşqınlarla üzləşir. İllik daşqın hadisələri artıq əhalinin 30 faizini birbaşa təsir altına alır.

BMT-nin iqlim dəyişmələri ilə bağlı qlobal sazişlərində böyük dövlətlərin inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyi verməsi nəzərdə tutulur. Xatırladaq ki, 2009-cu ildə keçirilən COP15 Kopenhagen sammitində ildə 100 milyard dollar dəyərində dəstək fondu vəd olunmuşdu. Lakin bu öhdəlik tam olaraq yerinə yetirilməyib. 2020-ci ildə bu məbləğin 83 milyard ABŞ dollarına çatdığı bildirilmişdi, yəni nəzərdə tutulan maliyyənin yalnız 83 faizi təmin olunub. 2016-2019-cu illərdə vəsaitlərin 71 faizi kredit şəklində, yalnız 29 faizi isə qrant olaraq verilib. Bu da az inkişaf etmiş ölkələr üçün əlavə borc yaradır. ABŞ, Kanada və Avstraliya kimi ölkələr COP öhdəliklərində böyük pay sahibləri olmalarına baxmayaraq, maliyyə dəstəyini tam təmin etmirlər. Məsələn, ABŞ 2021-ci ildə COP26 zamanı 11.4 milyard dollar maliyyə vədi versə də, indiyədək bu miqdarın yalnız bir hissəsi həyata keçirilib. Böyük dövlətlər dünya miqyasında karbon emissiyalarının əsas mənbəyi olaraq qalır. 2019-cu ilin məlumatlarına görə, dünyada karbon emissiyalarının təxminən 47 faizi böyük dövlətlərin payına düşür. Kiçik ada dövlətləri və az inkişaf etmiş ölkələr isə bu payın yalnız 0.5 faizini təşkil edir. Buna baxmayaraq. əks təsirə məruz qalan əsas dövlətlər də bu ölkələrdir. İqlim dəyişmələri ilə bağlı müzakirələrdə böyük dövlətlər iqtisadi maraqlarını müdafiə edərək emissiyaların azaldılması barədə ciddi addımlardan çəkinirlər. Bu, əsasən sənaye sektorunun iqtisadi zərurətlərlə əsaslandırılması və bərpa olunan enerji keçidində genişmiqyaslı işlər görülməməsi ilə bağlıdır.

Təəssüf ki, kiçik dövlətlər COP sammitlərində öz səslərini duyurmağa çalışsalar da, onların təklif və tələbləri çox vaxt diqqətdən kənarda qalır. COP26-da Tuvalu, Fiji, Maldiv adaları kimi ölkələrin nümayəndələri emissiyaların təcili azaldılması üçün həyəcan təbili çalsalar da, böyük dövlətlər yenə də lazımi dəstək göstərmədilər. Əvvəlki konfranslarda kiçik ada ölkələrinin nümayəndələri tərəfindən "Loss and Damage" (ziyan və zərər) adı altında böyük dövlətlərdən təzminat tələb olunsa da təklif böyük dövlətlər tərəfindən rədd edildi. 2021-ci ildə Maldiv və Tuvalu nümayəndələri tərəfindən "Yaşamaq üçün saziş" təklifi təqdim olundu. Bu təklif qlobal istilik artımının 1.5 dərəcə C ilə məhdudlaşdırılmasını tələb edirdi. Lakin COP26 qərarında bu hədəf yalnız tövsiyə olaraq qaldı.

## Maliyyə dəstəyi tam yerinə yetirilməli, öhdəliklərə ciddi yanaşılmalıdır

Nəticə etibarilə COP sammitləri əsasən qlobal iqlim dəyişmələri ilə mübarizə üçün yaradılan ən mühüm platformalardan biridir, lakin böyük ölkələrin laqeydliyi kiçik dövlətlərin qlobal iqlim dəyişmələri ilə mübarizəsini çətinləşdirir. Böyük iqtisadi güclər iqlim dəyişmələri ilə bağlı tədbirlərdə qlobal məsuliyyətlərini daha ciddi qəbul etmədikcə, kiçik və həssas ölkələrin yaşadığı çətinliklər daha da dərinləşəcək. Bu məsələdə böyük dövlətlərin həm maliyyə dəstəyini tam yerinə yetirməsi, həm də iqlim dəyişmələri ilə bağlı öhdəlikləri daha ciddi şəkildə qəbul etməsi olduqca vacibdir.

## Qlobal təşəbbüslər

Sədrlik tərəfindən irəli sürülən təşəbbüslərin məqsədi iqlim fəaliyyətini irəlilətmək, tərəf olmayan maraqlı tərəflərin fəal iştirakını təşviq etmək, iqlim dəyişmələri ilə bağlı ambisiyaları artırmaq və fəaliyyətə təkan verməkdir. COP29 Sədrliyinin təşəbbüsləri sinerjini, əlaqəliliyi və yüksək təsiri təmin etmək üçün öncədən başladılan dəyərli irsi davam etdirir. Sədrlik təşəbbüsləri hazırlayarkən Birləşmiş Millətlər Təşkilatının Qlobal İşçi Qrupu, tərəf və müşahidəçi qismində çıxış edən (tərəf olmayan) digər maraqlı tərəflərlə hərtərəfli fəaliyyət planını həyata keçirmək üçün inklüziv əməkdaşlığı davam etdirəcək.

Mədən (qazıntı) yanacağı hasil edən ölkə və şirkətlərin könüllü ianələri ilə maliyyələşən Fond mənfi təsirlərin yumşaldılması üçün tədqiqat və inkişaf üzrə dövlət və özəl sektorları gücləndirəcək. Həmçinin inkişaf etməkdə olan ölkələrdə təbii fəlakətlərin nəticələrini qısa zamanda aradan qaldırmaq məqsədilə yüksək güzəştli və qrant əsaslı maliyyələşdirmə üçün xüsusi imkanlara malik olacaq.

İqlim maliyyəsi, investisiya və ticarət üzrə Bakı Təşəbbüsü (BICFIT) "yaşıl şaxələndirmə"yə sərmayəni təşviq etmək və dialoq vasitəsilə təcrübə mübadiləsi aparmaq üçün platforma ilə iqlim maliyyəsi, investisiya və ticarət əlaqəsinə diqqət yetirir.

Yekun öhdəlik investisiyaların təşviqi, iqtisadi artımın stimullaşdırılması, infrastrukturun inkişafı, modernləşdirilməsi və genişləndirilməsi hədəfləri də daxil olmaqla, "yaşıl enerji" zonaları və dəhlizlərinə, eləcə də regional əməkdaşlığın təşviqinə töhfə verəcək.

Qlobal enerji saxlama qabiliyyətini 2022-ci il səviyyəsindən 6 dəfə artırmağı və 2030-cu ilə qədər 1500 qiqavata çatdırmağı hədəfləyir. Enerji şəbəkələrini təkmilləşdirmək üçün təsdiqləyicilər şəbəkələrə

sərmayələri əhəmiyyətli dərəcədə genişləndirərək 2040-cı ilə qədər 80 milyon kilometrə çatdırmağı öhdələrinə götürəcəklər.

İqlim davamlılığı üçün Bakı Təşəbbüsü bəşəri inkişaf üzrə müxtəlif nəticələr, o cümlədən təhsil, bacarıqlar, sağlamlıq və rifah halına, xüsusən də uşaqlar və gənclər üçün sərmayələrə təkan verilməsini, COP-dan COP-a davamlılığın yaradılmasını və təhsil standartları vasitəsilə ekoloji savadlılığın artırılmasını təmin edəcək.